# İSMAYILOV İNQİLAB ƏLƏKBƏR OĞLU



24 fevral 1962-ci ildə Xocalı şəhərində anadan olmuşdur. 1979-cu ildə orta məktəbi bitirmişdir. 1981-ci ildə ordu sıralarına çağırılmış və daxili qoşunlarda xidmətə başlamışdır. Hərbi xidmətdə olduğu vaxt Xarkov şəhərində gizirlik məktəbini bitirmişdir. 1984-cü ildə Xocalıya qayıtmışdır. 1988-cı ildən Dağlıq Qarabağda vəziyyət gərginləşəndə İ.İsmayılov da torpaqların müdafiəsinə qalxmışdır. 1990-cı ildə Xocalı şəhər polis şöbəsində işə qəbul edilmişdir. 1992-ci il fevralın 26-da Xocalı faciəsi zamanı sağ qalmış camaatın bir hissəsini düşmən mühasirəsindən çıxarılmasında fədakarlıq göstərmişdir. Bundan sonra o, fəaliyyətini Ağdam rayon Polis Şöbəsinin post-patrul xidməti alayında davam etdirməli oldu. İ.lsmayılovun xidmət etdiyi post-patrul alayı Daşbaşı yüksəkliyini dəfələrlə erməni hücumundan qorumuşdu. Düşmən 1992-ci ilin 12 iyununda böyük qüvvə ilə Daşbaşı yüksəkliyinə yenidən hücum etdi. Cəsur döyüşçülər bu dəfə də hücumun qarşısını məharətlə aldılar və düşmənin 6 postunu sıradan çıxardılar. Lakin İ.İsmayılov 1992-ci il iyunun 12-də bu döyüşdə qəhrəmancasına həlak oldu. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə İsmayılov İnqilab Ələkbər oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Bakının Xətai rayonundakı küçələrdən biri onun adını daşıyır. Həmin küçədə xatirə lövhəsi vurulmuşdur.